Respublika.- 2018.- 13 dekabr.- S.7.



# Şuşa Humanitar Kollecində Ümummilli Liderin xatirəsinə həsr olunmuş anım mərasimi

Anım mərasimini kollecin direktor müavini Könül Hüseynova açaraq sözü Şuşa Rayon İcra Hakimiyyətinin başçısı, "Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədri Bayram Səfərova verdi. O, çıxış edərək dedi ki, müstəqil Azərbaycan Respublikasının memarı, ictimai və siyasi dövlət xadimi Heydər Əliyev bütün həyat və fəaliyyətini ölkəmizin inkişafına, dünya dövlətləri arasında layiqli yer tutmasına həsr etmişdir.

"Mənim üçün hər şeydən əziz mənim xalqımdır, mənim Vətənimdir, mənim torpağımdır" - deyən ulu öndər Heydər Əliyev Vətənə, xalqa sonsuz məhəbbət hissi ilə yaşamış, hər zaman milli dəyərlərə bağlı olmuşdur.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi bütün dövrlərdə təhsilin, səhiyyənin, iqtisadiyyatın, mədəniyyətin hərtərəfli inkişafına qayğı ilə yanaşmışdır.

1969-cu il iyulun 14-də Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilən Heydər Əliyev 1969-1982-ci illərdə böyük işlər görmüş, o dövrdə həyata keçirilən layihələr isə öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsini təşkil edir.

1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib və SSRİ-nin rəhbərlərindən biri olub.

Daima xalqının xoş gələcəyi üçün çalışan Heydər Əliyev bütün bu haqsızlıqlara dözmür və Azərbaycana gəlir. 1991-ci il sentyabr ayının 3-də Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçilir. 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasını yaradır.

1993-cü il iyun ayının 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilir. Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra respublikamızda sabitlik bərqərar oldu, iqtisadiyyat inkişaf etdi, xalqın həyat səviyyəsi yüksəlməyə başladı.

1993-cü il oktyabrın 3-də xalqımız yüksək siyasi fəallıq göstərərək Heydər Əliyevi Azərbaycan Respublikasının Prezidenti seçdi.

Ulu öndər Heydər Əliyev xarici ölkələrə səfərləri zamanı əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəldərək, Ermənistanın işğalçılıq siyasətini dünyaya bəyan etdi.



Ermənistanın Avropa Şurası tərəfindən təcavüzkar kimi tanınmasında Heydər Əliyevin əvəzsiz xidmətləri var. Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü ilin may ayının 12-də Ermənistanla atəşkəs haqqında razılaşma əldə olundu, hərbi əməliyyatlar dayandırıldı.

Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirib ki, "Şuşasız Qarabağ, Qarabağsız isə, ümumiyyətlə, Azərbaycan yoxdur".

Ümummilli lider Şuşa haqqında demişdir: "Azərbaycanın ən əziz və böyük tarixi olan bir guşəsidir. Şuşanı yaradanlar, Şuşa şəhərini quranlar, Şuşa qalasını tikənlər Azərbaycan torpağının sahibləri olublar və Qarabağda Azərbaycan torpağının daim qorunması, saxlanması üçün Şuşa şəhərini, qalasını yaradıblar".

Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi Heydər Əliyevin ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş dövlət quruculuğu prosesi bu gün Prezident İlham Əliyev tərəfindən daha yüksək əzmkarlıqla davam etdirilir.

Biz inanırıq ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həll olunması yolunda dövlətimizin, cənab İlham Əliyevin apardığı məqsədyönlü siyasət nəticəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, həmin yerlərdə üçrəngli müqəddəs bayrağımız dalğalanacaqdır.

Hörmətli Prezidentimiz İlham Əliyev demişdir: "Bu gün Azərbaycan Heydər Əliyevsiz yaşayır. Bu, bizim hamımız üçün böyük imtahandır. Hamımız üçün böyük kədərdir, dərddir. Amma bizə təskinlik verən odur ki, Heydər Əliyevin ideyaları yaşayır, Heydər Əliyevin siyasəti yaşayır. Onun qurduğu, yaratdığı müasir Azərbaycan güclənir, yaşayır və bundan sonra da yaşayacaqdır!".

Ulu öndər, müdrik rəhbər, dahi şəxsiyyət Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Sonra kollecin direktoru Rasim Mehdiyev, direktor müavini Könül Hüseynova, III kurs tələbəsi Şəms Qəhrəmanova və başqaları ulu öndər barədə öz ürək sözlərini dedilər.

Tədbirin sonunda ulu öndərin həyat və fəaliyyətindən bəhs edən videogörüntülər nümayiş etdirildi. Yekunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən sərgiyə müəllim və tələbələrin baxışı oldu.

**Zabit CAVADOV,**
**"Respublika".**